İPƏK YOLU, No.1, 2019, səh.63-70

# BÖYÜK BRİTANİYA POSTMODERNİST ROMANININ TƏŞƏKKÜLÜ

**Yeganə Abdullayeva**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: y.abdullayeva68@gmail.com

**Xülasə.** Böyük Britaniya nəsrində C.Coysun "Uliss" əsərindən başlayan forma və məzmun dəyişikliyi yeni roman forması – postmodernist romanın yaranmasına zəmin yaratdı. Böyük Britaniya postmodernist romanının erkən mərhələsini təşkil edən və müxtəlif bədii sistemlərin qarşılıqlı əlaqəsində yaranan U.Qoldinq, M.Spark və C.Faulzun romanları bu sıraya aiddirlər. Məqalədə müxtəlif ədəbi-bədii sistemlərin qarşılıqlı əlaqəsində yaranan Böyük Britaniya postmodernist romanının təşəkkül dinamikasına aydınlıq gətirilir, onun spesifik əlamətlərindən söhbət açılır.

**Açar sözlər**: U. Qoldinq, M. Spark, C. Faulz, postmodernist roman, bədii sistemlər.

**FORMATION OF GREAT BRITAIN POSTMODERN NOVEL**

**Yegana Abdullayeva**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The changes in form and content, started from "Ulysses" by J. Joyce, laid the foundation for the emergence in the prose of Great Britain a new form of the novel named "postmodern novel". The list includes the novels of W. Golding, M. Spark and J. Fowles which formed the initial stage of the postmodern novel of Great Britain and resulted from the interconnection of various artistic systems. The article clarifies the dynamics of the formation of the British postmodern novel, which a rose through the interaction of various literary and artistic systems, affectingits specific features.
**Keywords:** W. Golding, M. Spark, J. Fowles, postmodern novel, artistic systems.

**СТАНОВЛЕНИЕ ПОСТМОДЕРНИСТСКОГО РОМАНА В ВЕЛИКОБРИТАНИИ**

**Егана Абдуллаева**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** Начатые с «Улисса» Дж. Джойса изменения формы и содержания, заложили основу для возникновения в прозе Великобритании новой формы романа – постмодернистского романа. К этому списку относятся романы У. Голдинга, М. Спарка и Дж. Фаулза, составившие начальный этап постмодернистского романа Великобритании и возникшие в результате взаимосвязи различных художественных систем. В статье вносится ясность в динамику становления британского постмодернистского романа, возникшей посредством взаимодействия различных литературно-художественных систем, затрагивается его специфические признаки.
**Ключевые слова:** У. Голдинг, М. Спарк, Дж. Фаулз, постмодернистский роман, художественные системы.

## 1. Giriş

İngilis-irland yazıçısı Ceyms Coysun "Uliss" əsərindən başlayan roman janrında forma və məzmun dəyişikliyi keçən əsrin 60-70-ci illəri Britaniya nəsri üçün zəmin yaratdı. Hələ öz dövründə C. Coys simvolistlərin ardınca mətnin qrammatikasını "dağıtmış", təhkiyə texnikasını dəyişməklə qeyri-adi forma "almışdır". Məlumdur ki, "Uliss" romanının çox

hissəsi durğu işarələrsiz, baş hərflərin yoxluğu ilə seçilir. Yazıçı tərəfindən "inşa" edilən romanın effekti onun mənasıyla deyil, dil oyununa çevrilən dil axını – mətniylə bağlı idi.

"Uliss" romanının meydana gəlməsini üç kardinal xətt üzrə izah etmək mümkündür. Birinci, ənənə, xüsusən nəsr təhkiyəsi ilə bağlı ənənə müəyyən yol qət etdikdən sonra qaçılmaz şəkildə dəyişməyə məruz qalır, bu dəyişmələr bəzən müəyyən milli ədəbiyyatlarda cücərtilər şəklində peyda olur, müəyyən nəsr əsərlərində özünü göstərsə də, hadisənin mahiyyətini tam ifadə edə bilmir. Belə hallarda illər boyu yığılıb qalmış təhkiyə enerjisi partlayış şəklində zühur edir, nəticədə hətta ən yeni avanqard xüsusiyyətlər belə həmin partlayışın dalğaları altında qalır. İkinci, bir xətt boyunca inkişaf edən ənənəvi üslubla yazılan əsərlər müəyyən mətləbləri ifadə etdikdən sonra mətnlərarası virtual gerçəklikdə həmin ənənəni başqa şəkildə oxumaq ehtiyacı yaranır. Bu şiddətli ehtiras ənənənin bütün cəbhə boyu dağıdılması və bərpası ilə müşahidə edilir. Bədii əsərdə məlumdur ki, bütün mətləb, yəni oxucuya çatmalı olan informasiyanın özülü gizli qalır, yəni sətirlər arası məkana toplanaraq müəyyən cazibə-maqnit sahəsini formalaşdırır. Bu maqnit sahəsi ənənənin və ənənəvi təhkiyənin dağılmasına, parça-parça olmasına onun orijinal, ilkin halının qurulmasına bənzəyir. Bu kimi qəliz proseslər mətndə deyilməyən, deyilə bilməyən mətləbləri bir az da gizlədir, yəni, onları sirr kimi saxlamağın yeni üsullarının kəşf edilməsinə gətirib çıxarır.

Üçüncü, başqa bir problem isə ondan ibarətdir ki, bədii nəsr təhkiyəsi zamanca müəyyən yol qət etdikdən, deməli böyük bir təcrübə qazandıqdan sonra dil məsələsində qaçılmaz dönüş baş verdi. Dil, yəni ədəbiyyatın gerçəklik və dünya ilə münasibətdə nə olması məsələsi. Bu dil vasitəsi ilə ədəbiyyat (bədii nəsr təhkiyəsi) özünü anladır, özünün gerçəkliklə əlaqələrinin olmamasını, fiksiya olduğunu çatdırır. "Uliss" romanı da gerçəklikdən ayrılıb qopmanın ifrat halıdır, eyni zamanda isə bədiiliyin o çağa qədər açılmayan qatlarını, işarə və simvollarını nişan verir. Bədiilik təkcə oxucunu dünyadan müəyyən məsafədə ayıran, onu həyəcanlandıran, maraqlandıran, dünyagörüşünün üfüqlərini genişləndirən bir nəsnə deyil, söz, dil ifadəsi şüurluluqla şüursuzluğun sərhədində də dayanıb özünü ifadə edə bilər. Ancaq bu yeganə və alternativi olmayan bir haldır. C. Coys Fransada yaşadığı illərdə bu tipli şüur axınının dominant olduğu fransız romanını mütaliə etmişdi, bu mətnlərdən duyduğu şey onda kəskin təbəddülat oyatmışdı. "Uliss"də yuxarıda qeyd etdiyimiz sərhəd zonasında dayanan sözün dinamikası açıqlanır. Yəni, "Uliss" romanı sözə sığmazlığın bütün bəlirtilərini açıb göstərən bir əsərdir və belə olduğu üçün də dünya nəsrinə təmasla deyil, məsafədən təsir göstərdi.

## 2. Böyük Britaniya postmodernist romanında fərqli ədəbi-bədii meyillərin sintezi

Müasir Britaniya ədəbiyyatını tədqiq edən Zaxari Lider "On Modern British Fiction" əsərində ingilis romanını dəyərləndirərək yazır: "1960-ci ildən başlayaraq müasir ingilis romanı böyük yol keçmiş, özünün burjua kökənini unutmuş, irland, şotland, hind, Karib kimi xarici "faktorların" təsirindən Britaniya romanına çevrilmişdir: iddialı, qüdrətli, hər şeyi əhatə

edən, çoxsəsli mətn" [10, s.84]. Bu yanaşma Britaniya romanının inkişaf dinamikasını düzgün müəyyən edir. Həqiqətən Böyük Britaniya romanı tək ingilis ədəbiyyatı mərhələsi demək deyil, bu ədəbiyyat irland, şotland, Uels ədəbi-mədəni həyatı ilə bağlı olub yeni Böyük Britaniya ədəbiyyatı yaratmışdır.

Digər ingilis ədəbiyyatşünası Nik Bentlinin "müharibədən sonrakı onillikdən fərqli olaraq yetmişinci illərin əvvəllərindən günümüzədək Britaniya ədəbiyyatında yeni, başqa faza yaranmışdır" [6, s.2] - fikrini əlavə etsək Britaniya ədəbi mühitini tam canladırmış olarıq. Bu dövrün xarakterik xüsusiyyətlərindən biri də realizmin və modernizmin roman janrına təsiri ilə bağlı idi. Ənənəvi realist ədəbiyyat və yeni dövrün modernist ədəbiyyatı paralel addımlayır, bəzən isə qarşılıqlı əlaqədə yeni romanlar yaranırdı. ABŞ ədəbiyyatından mövcud olan postmodernist təmayüllər Avropanın digər ölkələrində artıq öz sözünü desə də, Britaniya cəmiyyətində bu meyillərin element və əlamətləri görünürdü. Realist üslubda yazan yazıçılar postmodernist priyomlara yan alır, modernizmin, xüsusilə ekzistensializmin ingilis ədəbiyyatında aparıcı mövqedə dayanmasıyla bağlı yaranan yeni romanlarda onların qarşılıqlı əlaqəsini görmək olardı. Bu eyni zamanda postmodernizmin daxili qanunlarından biri – digər ədəbi sistemlərlə qarşılıqlı əlaqəyə girə bilməsi ilə də bağlı idi. Təkcə realizm və ya modernizminlə postmodernizmin sintezi deyil, eyni zamanda da postmodernizmin neoklassik modifikasiyası bu dövrdə yaranan romanların əsasını təşkil edir. Bu sıraya Uilyam Qoldinqin, Müriel Sparkın, Con Faulzun romanlarını aid etmək olar. Adları sadalanan yazıçılar uzun illər realizmin, modernizmin və qismən də olsa postmodernizmin ədəbi nümayəndələri kimi ədəbiyyatşünaslıqda öyrənilmişlər.

Britaniya ədəbiyyatının bu dövründə yaranan romanı, M. Lipovetskinin təbiri ilə desək "özünəməxsus realist impulsların müxtəlif mövqelərinin təsiri nəticəsində dirçəlir, daha dəqiq ifadə etməli olsaq, postmodernizm və realizm arasında bağlanan sazişlərdən sözün əsl mənasında bəhrələnir" [2, s.310]. Tədqiqatçı daha sonra fikrini ümumiləşdirərək yazır ki: "söhbət sadəcə realizmə bağlılıqla və onun yeni ədəbi meyllərə nüfuz edib müəyyən kombinasiyalarda çıxış etməsi ilə əlaqədar deyil, məsələnin məğzində belə bir mühüm məqam durur ki, insan taleyinin dramatizmi bu kimi bədii nümunələrdə çoxsaylı xaotik mərhələlərdə və postmodernist dünyagörüşündə oynanılır" [2, s.310].

Britaniya nəsrində yaranan yeni romanın izahını verən D. Hedin yanaşması da maraq doğurur: "Belə roman (postmodernist roman – Y.A.) realizmlə əlaqəni bərpa edir, oxucuya mətn və reallığı birləşdirmədə körpü olur. Əgər biz realizmi inkar etməyən, əksinə onun çevrilməsinə əsaslanan postmodernizm haqqında danışırıqsa, əgər bu postmodernizm emosional əks-səda yaradırsa, demək biz Britaniyada elə bu postmodernizmlə iş birliyindəyik. Postmodernizm fenomeninin yeni hibrid və yenilənmiş ənənə kimi anlaşılması Britaniya postmodernizminə də şamil edilir" [8, s.229-230].

Realizmlə, başqa sözlə, keçmişlə əlaqəni bərpa edən postmodernist üslub oxucuya konkret "göstərişlər" ünvanlayır: mətn və reallıq hansı məqamdasa birləşir, ancaq bu birləşmə, qaynaq yeri daha çox tanıdıcı səciyyə daşıyır. Keçmişin gücünü və məhdud

cəhətlərini öyrənib onların pəncərəsindən bu günə, dəyişən dünyaya baxmaq bədii düşüncədə baş verən metamarfozaları görməkdə yardımçı olur. Postmodernist ədəbiyyatın universal səciyyəsini sərf-nəzər etməli olsaq, yəni Britaniya ədəbiyyatında postmodernizmin milli variantından danışmalı olsaq bir sıra özəl keyfiyyətləri müşahidə etmiş olarıq. Böyük Britaniyada poststrukturalizm ideyalarının bu ölkədə artıq ənənə halını almış, yəni artıq qana və sümüyə işləmiş istənilən ədəbi fəaliyyət sferasının konkret tarixi əsaslandırma ilə təması ən müxtəlif səpkili bədii kontekstlər yaratdı. Bu kimi səciyyəvi xüsusiyyətlərdən birinin adını çəkmək kifayətdir: tarixə mübtəlalıq. Bu dövrün ingilis postmodernist yazıçıları bədii təhkiyəni tarixə o dərəcədə yaxınlaşdırdılar ki, nəyin real, nəyin fiksiya olması arasında güclü tərəddüdlər yaranırdı. Onların böyük əksəriyyətinin tarix haqqında bədii dillə gəldikləri qənaət bundan ibarətdir ki, tarix heç də nə zamansa hansısa hadisələrin baş verməsi deyil, tarix əslində təhkiyəçinin bizə bu barədə nələri deməsidir. Bu dövrdə Britaniya nəsrinin nümayəndələrinin yaratdıqları metanəsr nümunələrində müəyyən dövrün hadisələrindən tarixi planda bəhs edilərkən müəllif özünü ciddi-cəhdlə o dövrdən ayırır. Yəni, əlindən gələni edir ki, özünün təsvir etdiyi, haqqında danışdığı dövrə kənardan baxdığını nümayiş etdirə bilsin. Bununla əlaqədar olaraq o, U. Ekonun "Qızılgülün adı" romanında olduğu kimi xeyli çıxarışlar verir, həmin dövrün hadisələrini, anlayış və konseptlərinisosio-linqvistik və digər baxımlardan izah etməklə müəllif iradəsinin canlı olduğunu və R. Bartın "müəllifin ölümü" konsepsiyasına rəğmən ölmədiyini sübut etməyə çalışır. Bu tipli metanəsr nümunələrində təhkiyə refleksi reallığın irreal səpkidə təqdimini şərtləndirir, janr və formaların qarışdığı brikolajda ən müxtəlif bədii konsepsiyalar yaranır.

Metanəsrdə belə bir nəzər nöqtəsinin yaranması heç də təsadüfi deyildi. Postmodernizmin poetikası, onun tarix və keçmişə münasibətini incələyən tədqiqatçılar [9] qeyd edirdilər ki, keçmiş modernist yazıçıların implisit baxışlarının təsiri altında haqq-hesab çəkəcəyimiz bir nəsnə deyildir, keçmiş elə bir məfhumdur ki, onunla qaçılmaz şəkildə ümumi dil tapmalıyıq. Onun məhdudiyyət və üstünlüyünü, bütün gücünü göz önündə tutmalıyıq.

Böyük Britaniya romanını tədqiq edən O.Tolstıxın gəldiyi qənaət də diqqətə layiqdir. Tədqiqatçı postmodernist romanın aparıcı nümayəndələri A. Bayett və D. Locun yazı üsuluna münasibət bildirərək yazır: "A. Bayett və D. Loc yaradıcılığının özünəməxsusluğu, müxtəlif yazı üslubları ilə eksperimentləri, bu tərzin realist tərzlə uyuşması bacarığı onları "eksperimental realizm" və "postmodernizmə nostalgiya" çərçivələrində ənənəvi klassik realist romanın davamçıları, "şübhəli" postmodernistlərə aid edilmələri ilə nəticələndi" [3, s.18].

Tədqiqatçının Böyük Britaniya yazıçıları ilə bağlı gəldiyi qənaəti eyni zamanda Britaniya nəsrində özünəməxsus yeri olan U. Qoldinq, M. Spark və C. Faulz yaradıcılığına da şamil etmək olar. Hər üç yazıçı Britaniya ədəbiyyatında təşəkkül tapan postmodernist romanın erkən mərhələsi dövründə yaşayıb yaratmışlar. Ənənəvi Britaniya romanının kanonlarını dəyişən və roman janrını yeni müstəviyə çıxaran U.Qoldinq, M.Spark və C.Faulz

yaradıcılığını ədəbi tənqid realizmin, modernizmin və postmodernizmin ədəbi simaları hesab edirlər. Bir-birindən fərqlənən hər üç ədəbi-bədii sistemlərə aid edilən yazıçılara münasibət ilk baxışdan təəccüb doğursa da, bu yanaşmanın hesab edirik ki, əsaslı izahı mövcuddur. Bu ilk növbədə onunla bağlıdır ki, postmodernist təmayüllər Britaniya ədəbiyyatına, Avropa və eləcə də Qərb ədəbi-bədii düşüncəsinə nisbətən gec təsir etmiş və ənənəvi ədəbiyyata bağlı britaniyalı oxucusu üçün "gözlənilməz" olmuşdur. 60-70-ci illər realist və modernist ədəbiyyat ədəbi cameədə aparıcı mövqeyə malik idi və onun ən maraqlı nümunələri hələ də yaranmaqda idi. Ədəbi tənqid də yaranan yeni əsərlərə bu istiqamətdə reaksiya verirdi.

O. Tolstıx Britaniya postmodernizminin özəlliyini müəyyən edərək yazır: "Britaniya postmodernizminin əsas əlaməti onun ədəbi ənənə, antimodernist istiqamət və komediyalı-satirik ənənəyə qayıdışı ilə sıx əlaqəsindədir. Müasir ingilis romanının ironiyalı-parodiyalı xarakterinə janr qarışıqlığının, reallıqla uydurmanın, XIX əsr realizminin stilizasiyası nöqtəsindən baxılır. Müəllif istehzası ilk növbədə klassik mətnin zəif və çatışmayan tərəflərinin açılmasına deyil, müxtəlif mədəni işarə və kodlarla, ənənəyə təqlid və şərtiliklərlə, qanunlarla oyun arasında balanslaşdırılan postmodernist özünüistehzanın modifikasiyasına uğrayan müasirliyin aktual problemlərinə yönəlib" [3, s.10]. Məlum olduğuna görə, modernist nəsr mətnlərində istehza daha çox pərişanlıq və ümidsizlikdən müdafiə xarakteri daşıyırdı. Əsər boyu sərgilənən istehza strategiyası alt qatlarda oxucu ilə gərgin dialoq yaradırdı, məhz bu gərgin dialoqun sayəsində dünyaya tam fərqli baxış meydana çıxırdı, yəni, modernist nəsrdə istehzanın "qazıcı" xarakteri oxucuya dünya və gerçəkliyə başqa mövqelərdən baxmaq imkanının yaradılması ilə şərtlənirdi. İstehza, digər tərəfdən, bədii düşüncədə başqa istiqamətlərə səyahətin də qarşısını alırdı. Yəni, istehza kəskinləşdikcə gerçəkliyin çox sayda metafizik refleskiyası nəzər nöqtəsindən kənarda qalırdı. Modernistlərin istehzasında məqsədli gedişlər haqqında bəhs edilən hadisəni "aşağılamaq" səciyyəsi də daşıyırdı. Postmodernizmdə isə istehza ilə bağlı işarə sistemi dəyişir, ikili kodlaşma baxışı yaranır. Bu halda bildirənlə bildirilən bir-birindən ayrılır, sözlə obyekt arasında bitib-tükənməyən oyun başlayır. Bununla bədii mətndə vahid üslub strategiyası dağıdılır, məhv edilir, ən müxtəlif və kəskin fərqli qütblər arasındakı məsafə sıxılaraq bir nöqtəyə cəmləşir, bütün təhkiyə macərası da həmin məqamın, nöqtənin daxilində baş verir.

Britaniyalı tənqidçi A. Qazorek "Müharibədən sonra Britaniya ədəbiyyatı" kitabında yazırdı ki, gələcək Britaniya romanı ətrafında gedən mübahisələr uzun illər realizm və eksperimental ədəbiyyatla bağlı oppozzisiyada aparılır və bu yanaşmaya "sadəcə ənənəvi yazı və eksperiment kimi baxmaq düzgün olmazdı" [7, s.18-19]. A. Qazorekun doğru yanaşmasına onu da əlavə etmək olar ki, həqiqətən də Britaniya nəsrində gedən yeni dəyişiklik oppozisiya prinsipləri ilə deyil, qarşılıqlı əlaqədə inkişaf edirdi.

Tədqiqatçı "mürəkkəb ideoloji və estetik sistemlərin yaranması, çox vaxt bu təsnifatın özünün qəlizləşməsi, onun realizm və ya modernizm və ya neobarokko kimi hadisə və anlayışların yaranmasından xəbər verirdi" kimi fikirləri daha sonra "postmodernist

romantizm", "postmodernist realizm", "ekzistensial-realist sintez" kimi özünəməxsus postmodernist hadisələrin çoxnövlüyündən xəbər verir" ideyası şəklini alır [7, s.253-254].

U. Ekonun təbiri ilə desək : "Postmodernistin əsəri "realizmlə irrealizmin, formalizmlə məzmunçuluğun, elitar ədəbiyyatla kütləvi ədəbiyyatın" sərhədində dayanmalıdr" [5, s.429]. Yəni, postmodernizmdə bu tipli klişelərin yaranması əslində Britaniya nəsrinin nümunəsində olduğu kimi, müxtəlif bədii düşüncə tipləri arasında baş alıb gedən çoxyönlü təmasların nəticəsi idi. Postmodernist nəsr şərh tələb edir və özü də intəhasız sayda şərhlər verir. Bunun əsas səbəbi nədir? Ümumi səbəb ondan ibarət ola bilər ki, şərhlərin çoxluğu əslində onların mümkünsüzlüyü, bir nöqtədə, sabit ideya mərkəzində birləşə bilməməsi halı ilə əlaqədar idi. Gerçəkliyə, onun dərin nəhrində baş alıb gedən hadisələrə verilən şərhlər yetərli deyil, çünki bu hadisələrin özləri fiksiyadır, onların arasında hansısa həqiqəti üzə çıxaracaq bir əlaqə yoxdur. Bu mənada süjetlərin bir fazadan digərinə keçməsi təbiətdə süxurların sürüşməsi hadisəsinə bənzəyirdi. Tənqidçi bununla da belə bir ideyanı irəli sürür ki, hər hansı bir süjetdə digər süjetlərdən iqtibas gətirmək, onlardan istifadə etmək və onları dərk etmək, onlara istehzayla yanaşmaq lazımdır. Onun fikrincə, "Nəzər nöqtələrin çoxluğu bir tərəfdən bitmiş və qapalı formanı, digər tərəfdən çoxlu sayda müxtəlif şərhlərə açıq məhsul qismində sənət əsərini zəngiləşdirir" [5, s.218]. U. Ekonun postmodernist əsərin izahını verən bu şərhinə U.Qoldinqin, M.Sparkın, C.Fauzlun romanlarını da əlavə etmək olar.

Britaniya postmodernist romanının erkən mərhələsi "postmodernist realizm", "postmodernist romantizm", "ekzistensial-realist sintez", eksperimental ədəbiyyat, postmodernizm və realizm arasında bağlanan saziş, antimodernist istiqamət kimi öyrənilib. Müxtəlif bədii sistemlərin sintezi bu dövr romanına xas xüsusiyyət idi və postmodernist romanın erkən mərhələsi sinkretik mahiyyət daşıyırdı. Yuxarıda postmodern ədəbiyyatda şərhlərin intəhasız çoxluğu ilə bağlı qoyulan sualı burada başqa bir şəkildə cavablandırmaq ehtiyacı yaranır. Bu intəhasız şərhlərin bir səbəbi də bədii düşüncənin qazandığı tarixi təcrübəni ümumiləşdirmək (daha doğrusu, özününküləşdirmək), onları indiki çağın kod və işarələrinə çevirib güclənmək idi. U.Ekonun "Qızılgülün adı" romanının başlanğıcını-ekspozisiya hissəsini yada salmaq olar. Birinci cümlədəki "güman ki" sözü müəllifin güman etdiyi kimi, təkcə ədəbi lotos anlamını daşımırdı, təkcə ikili kodlaşma anlamına gəlmirdi, bu eyni zamanda keçmişi, tarixi təhdid və "şantaj" etməklə onun güc və enerjisini mənimsəmək məqsədini güdürdü. Başqa sözlə "postmodernizm qədim ənənələrin gücünü açmağa şərait yaratdı" fikri də yerinə düşür [4, s.237-238]. Məsələnin başqa bir tərəfi də mövcuddur: dünya və gerçəkliyin sonsuzluğunu əks etdirib, gözlər önündə canlandırıb özü üçün cəbhə açmaq. Yəni, postmodernist düşüncə bədii imkanları intəhasız çoxluq həddinə çatdırmaq üçün özünü bütün dövrlərin təcrübəsinin tən ortasında hiss edir, bu şəkildə mühasirəyə alınmış üslub kateqoriyasının yeganə çıxış yolu simbioz yaratmaqda idi. Yəni, əhatəsində olduğu, "əsir düşdüyü" üslubları mənimsəmək, onlarla inteqrasiya və digər tərəfdən yeni improvizə imkanlarını, poetik texnologiyaları icad etmək.

Keçən əsrin realizminin, modernizminin və postmodernizmin bədii təcrübəsini dəyərləndirən ədəbi tənqidçi L.Andreyev bu haqda yazır: "yeni simbiozun xarakterik cəhəti inteqrasiyaya can atma, müxtəlif təhkiyə texnikaları və dünyagörüşlü təmayüllərin insan talelərini və mürəkkəbləşən gerçəkliyi daha dolğun və hərtərəfli təsvir etməsidir" [1, s.241]. Zənnimizcə, tənqidçinin bu yanaşması U.Qoldinq, M.Spark və C.Faulzun birmənalı olmayan roman dünyasına da şamil etmək olar. U.Qoldinqin intellektual romanlarında özünəməxsus işarə sistemi, mədəni kodları əhatə edən fəlsəfi meyillər birləşir. Belə romanların strukturu, daxili əlaqəsi bir neçə ədəbi sistemlərlə əlaqədə olub, yazıçının roman dünyasını müəyyən edir. U. Qoldinqin romanları onun fəlsəfi-estetik görüşləriylə mətnin bədii strukturunun bütün elementlərinin vahid birliyidir. Bu vacib şərt yazıçının müxtəlif bədii sistemlərin priyomlarındanfaydalanmasına xidmət edir və onun roman dünyasını təşkil edir.

C.Faulz yaradıcılığı isə ədəbi üslub və istiqamətlərin, estetik sistemlərin kəskin qarşıdurmasında deyil, daha çox onların qarşılıqlı əlaqəsini və qarşılılıqlı zənginləşməsini təmin etmişdir. Yazıçı XX əsr Britaniya ədəbiyyatının keçdiyi yolu, keçmişdə mövcud olan ənənəni dəyərləndirməklə yeni roman janrını yaratmışdır. XIX əsr roman ənənəsinə, XX əsr modernist romanına müraciət edən C.Faulz eyni zamanda postmodernist nəsrin üslubi priyomlarından da yararlanmışdır. Elə bu yanaşma C.Fauzl yaradıcılığını Böyük Britaniya romanının yeni mərhələsinə, postmodernist roman janrının yaranmasına gətirib çıxarmışdır. Yazıçının yeni yazı manerası keçən əsrin 60-70-ci illər Böyük Britaniya romanını Qərb ədəbiyyatında formalaşan postmodernist nəsrin nümunələrinə yaxınlaşdırmışdır.

C.Fauzl yaradıcılığında viktorian ənənələrini dəyərləndirməklə yanaşı postmodernist yazı üslubundan məharətlə istifadə edə bilirdi. Ənənə və ondan yararlanma yazıçı üçün irsi bağların kəsilməməsi demək idi, lakin bununla belə onun ənənədən yararlanması formal xarakter daşımırdı. C.Faulz daha çox ənənəyə söykənib yeni ədəbiyyat yaratmağa nail olmuşdur. O, postmodern epoxasının yazıçısı kimi öz dövrünün metodoloji çərçivələrindən çıxmağa çalışırdı və bununla yeni müəllif yanaşması və keçmiş təcrübələrə yeni mədəni baxışı formalaşdırmağa nail oldu.

**Nəticə.** Yeni ədəbi mərhələnin formalaşması dövründə yaşayan U. Qoldinq, M. Spark və C. Faulz keçid dövrünü roman poetikasının paradoksallığında əks etdirdilər. Onların romanlarında ifadə olunan realizmin və modernizmin fonu postmodernizmin bir sıra priyomlarıyla birləşir. Digər tərəfdən nəinki hər üç yazıçını müraciət etdikləri priyomlar postmodernizmin poetikasıyla həmahəng səslənir, eyni zamanda onların romanlarında postmodernist hissiyyat, başqa sözlə dünyaya baxış xaosun dərk olunmamasında, keçmiş dəyərlərə yenidən baxılmasında və gerçəkliyin özünün şərti olmasının dərkində özünü göstərir.

U. Qoldinq, M. Spark və C. Faulz yaradıcılığını birmənalı olaraq postmodernizmə aid etmək çətindir. Bu həm də onunla bağlıdır ki, hər üç yazıçı ədəbi səhnəyə postmodernist romanın yaranmasına keçid dövründə qədəm qoymuşdular. Həmin dövrdə Britaniya

ədəbiyyatında modernizm bədii sistem kimi öz təsir dairəsini itirməyə başlamış, postmodernizm isə hələ tam formalaşmamışdı.

Postmodernizmin Britaniya ədəbiyyatında yaranması keçən əsrin 70-ci illərinin sonuna təsadüf edir. Həmin bu illərdə Britaniya ədəbiyyatı klassik realizmin və modernizmin prinsiplərindən uzaqlaşmağa başlamışdı.

Britaniya ədəbiyyatında postmodernizmin səciyyəvi əlamətləri əsasən onun komizmi, ironiya və yumora meyilliliyi ilə şərtlənirdi. Keçmişlə dialoq, realist və modernist romanla əlaqə yeni romanların yaranmasına səbəb olurdu. Bu baxımdan U. Qoldinq, M. Spark, C. Faulz yaradıcılığında realist və modernist ədəbiyyatla dialoq anlaşılan və başa düşüləndir. Bu dialoq parodiya və ironiyaya söykənərək yeni roman formasını postmodernist nəsrə yaxınlaşdırdı.

Dövrün abı-havasını daşıyan əxlaqi-etik dəyərlərin dəyişməsi bədii dünyanın təsviri prosesiylə assosiasiya təşkil edirdi. Bütün bunlar isə öz növbəsində bədii istiqamətlərin yaxınlaşması və bir-birinə qarışmasıyla nəticələndi. Bədii sistemlərin bu şəkildə bir-birini əvəz etməsi postmodernizmin özündən əvvəl gələn ədəbi-estetik istiqamətlərlə sələf-xələf münasibətləri müstəvisində U.Qoldinq, M.Spark və C.Faulzun romanlarının yaranması ilə nəticələndi.

## Ədəbiyyat

1. Андреев Л.Г., (2000), От «заката Европы» к «концуистории», «Награницах». Зарубежная литература от Средневековья до современности: сб. Работ, Москва. «ЭКОН», 240-255с.
2. Липовецкий М.Н., (1997), Русский постмодернизм: Очерки исторической поэтики, Екатеринбург, 350с.
3. Толстых О.Р., (2008), Английский постмодернистский роман конца XX века и викторианская литература: интертекстуальный диалог (на материале романов А.С. Байетт и Д. Лоджа), Автореферат, Екатеринбург, 24с.
4. «Французская литература выходит из чистилища». Виртуальный круглый стол, (1999), Иностранная литература, № 10. 237-238с.
5. Эко У., (2004), Открытое произведение: Форма и неопределенность в современной поэтике, СПб.:Академический проект, 484с.
6. Bentley N., (2005), British Fiction of the 1990s. Routeledge, London & NY, 205p.
7. Gasiorek A., (1995), Post-War English Fiction: Realism and After. London: Edward Arnold, 256p.
8. Head D., (2002), The Cambridge Introduction to Modern British Fiction, 1950–2000, Cambridge: Cambridge University Press, 230p.
9. Hatcheon L., (1988), A Poetics of Postmodernism: History, Theory, Fiction. Routledge, 284p.
10. Leader Z., (2002), On Modern British Fiction. Oxford University Press, NewYork, 289p.